# Cəbrayıl sakinlərinin qələbə sevinci



**Ermənistan sentyabrın 27-də Azərbaycana qarşı yeni təxribata əl atdı. Qəsbkarların qarşısını almaq məqsədilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlamağa məcbur oldu və onlara layiqli cavab verdi.**

**Hərbi əməliyyatlar başladığı gündən yaşayış məntəqələrimizin bir hissəsi ard-arda işğaldan azad edildi. Doğma Cəbrayıl şəhəri və onun kəndləri yağılardan xilas olundu. Bu şad xəbər ildırım sürəti ilə bütün Azərbaycana yayıldı, hər birimiz Azərbaycan Ordusu ilə bir daha qürur duyduq.**

**Bütün bunlar barədə Cəbrayıl sakinlərinin fikirlərini öyrəndik.**

**Fazil SƏFƏROV:**

–Möhtərəm Prezidentimiz İlham Əliyev Cəbrayıl şəhəri və rayonun kəndlərinin işğaldan azad edilməsi münasibətilə bütün Azərbaycan xalqına müraciətində bildirdi ki, dörd il bundan əvvəl rayonumuzun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlayıb. Uğurlu əməliyyat nəticəsində azad edilən yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar: "Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıddışımız məhz Cocuq Mərcanlıdan başlamışdır...".

Dövlətimizin başçısı, eyni zamanda, müraciətində bildirdi ki, hazırda Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır: "Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bu gün mən də həyatımın ən bəxtəvər günlərini yaşayıram. Bir mahnıda səsləndiyi kimi, dünyanın xoşbəxti mənəm dünyada. Axı 27 ildir ki, didərgin düşdüyüm doğma şəhərim Cəbrayıla qovuşmuşam. Bu illərdə çətinliklərimiz çox olub. Dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva daim bizə həssaslıqla, qayğı ilə yanaşıblar. Bütün problemlərimizi həll ediblər. Lakin ən böyük çətinliyimiz, məşəqqətimiz yurd həsrəti ilə yaşamaq olub. Şükürlər olsun Allaha! Prezidentimizin, Ali Baş Komandanımızın qətiyyəti, ordumuzun gücü sayəsində indi Cəbrayıl işğaldan azad olunub, yurd həsrətimizə son qoyulub.

Cəbrayılın işğaldan azad olunması xəbərini eşidəndə fərəhimdən ağladım. Sevincimi sözlə ifadə edə bilmirəm. İllərdir həsrətini çəkdiyimiz Vətənə qovuşuruq. Televiziya ilə Cəbrayılın azad olunması xəbərini eşidəndə bir Allah bilir hansı hissləri yaşadıq. Prezidentimizə minnətdarlığımızı bildiririk. Əminəm ki, ordumuz düşmən üzərində qələbə qazanaraq digər işğal altındakı ərazilərimizi də azad edəcək. Bütün məcburi köçkünlər doğma yurdlarına dönəcəklər.

**Şahin FƏTƏLİYEV:**

–İyirmi yeddi ildən sonra doğma yurdumuzun azadlığına qovuşmuşuq. Sevincimizin həddi-hüdudu yoxdur. Cəbrayıl müzəffər ordumuzun güc-qüdrət ilə erməni faşistlərindən azad edilib. İndi doğma yurdumuza qayıdacağımız günü səbirsizliklə gözləyirəm.

Biz 1993-cü ilin avqust ayından məcburi köçkün olaraq Saatlı rayonu ərazisində məskunlaşmışıq. Bu şad xəbəri də burada eşitmişik.

Bütün azərbaycanlılar kimi sevinc, fərəh hissi keçiririk. Bu xoşbəxtliyi bizə bəxş etdiyinə görə Ali Baş Komandanımıza dərin təşəkkürümüzü çatdırırıq.

**İsmayıl BALACAYEV:**

–Ailəmiz Şəki rayonunda məskunlaşıb. Təhsil işçisiyəm. Uzun illərdir işğal altında olan torpaqlarımız üçün darıxırdıq. Hər dəfə orada keçirdiyim uşaqlıq illərini xatırlayanda kövrəlirdim. Bu gün isə sevincimin həddi-hüdudu yoxdur. Qürur hissi keçirirəm ki, ordumuz erməni təcavüzkarlarını doğma torpaqlarımızdan qovur. Artıq bir sıra yaşayış məntəqələrimiz, o cümlədən mənim üçün doğma və əziz olan Cəbrayıl şəhəri, rayonun bir çox kəndləri erməni qəsbkarlarından azad olunub. İnanıram ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tezliklə xalqımıza qələbə sevincini yaşadacaq və bütün torpaqlarımız işğaldan azad olunacaq.

Cəbrayıl şəhərinin, həmçinin digər yaşayış məntəqələrinin işğaldan azad edilməsi Azərbaycan tarixinin qələbə salnaməsinin parlaq səhifələrindəndir. Torpaqlarımızın azad edilməsində iştirak edən əsgər və zabitlər xalqımızın ən qəhrəman oğullarıdır. Məhz onların şücaəti sayəsində ata-baba torpaqlarımız geri qaytarılır, şəhidlərimizin qisası alınır. İşğaldan azad edilən torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır.

Rəşadətli Azərbaycan Ordusunun zəfər yürüşünün davam edəcəyinə, işğal altındakı digər ərazilərimizin də tezliklə düşməndən azad olunacağına, məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdacaqlarına ürəkdən inanıram.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 9 oktyabr.- S.9.